# AZƏRBAYCAN QIZLARI

*Sözləri Hikmət Mahmudundur*

**Andantino sognando**






Yer üzünə bəzəkdi,
Hər biri bir çiçəkdi.
Sanki huri-mələkdi,
Azərbaycan qızları.

*Nəqarat:* Təmiz eşqin oduna
Düşsən yetər dadına.
Çatsınlar muradına
Azərbaycan qızları.

Yanaqlar ay parçası,
Gözlər çiçək bağçası.
Hər qız bir gül xonçası,
Azərbaycan qızları.

*Nəqarat:*

Sevin-seçin, arayın,
Hərə tapsın öz tayın.
Tanrı versin eşq payın,
Azərbaycan qızları.

*Nəqarat:*